**Barəsində əks-tədbirlər görülməli Yüksək Riskli zonalar - oktyabr 2025**

Yüksək riskli zonalar (ölkələr) əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi (ƏL/TM/KQSYM) sahəsində ciddi strateji çatışmazlıqlara malikdir. FATF bütün üzvlərinə bu zonalara münasibətdə gücləndirilmiş MÜŞTƏRİ UYĞUNLUĞU TƏDBİRLƏRİ (müştərilərin eyniləşdirilməsi və verifikasiyası) tətbiq etməyə çağırır. Eyni zamanda, FATF ən ağır hallarda beynəlxalq maliyyə sistemini qorumaq məqsədilə ölkələri əks-tədbirlər görməyə təşviq edir. Bu zonaların adının yer aldığı siyahı "qara siyahı" adlanır.

2020-ci ilin fevral ayından etibarən İran 2024-cü ilin yanvar, avqust və dekabr aylarında fəaliyyət planının statusunda heç bir nəzərəçarpan dəyişiklik olmadığını bildirmişdir.

Silahların yayılmasının maliyyələşdirilməsi risklərinin artmasını nəzərə alaraq, FATF bu yüksək riskli yurisdiksiyalara qarşı əks-tədbirlərin tətbiq edilməsinə dair çağırışını bir daha təkrarlayır.

**FATF aşağıdakı yurisdiksiyalar ilə əməliyyatlar zamanı əks-tədbir görülməsi ilə bağlı üzvlərinə və digər yurisdiksiyalara çağırış edir:**

***Koreya Xalq Demokratik Respublikası (KXDR)***

FATF KXDR-in ƏL/TMM rejimindəki mühüm çatışmazlıqları və beynəlxalq maliyyə sisteminin dürüstlüyünə ciddi təhdidləri aradan qaldırmamasına görə narahatlığını bildirir. FATF KXDR- i bu çatışmazlıqları dərhal və əsaslı şəkildə aradan qaldırmağa çağırır. Bundan əlavə, FATF KXDR-in kütləvi qırğın silahlarının (KQS) yayılması və onun maliyyələşdirilməsi ilə bağlı qeyri-qanuni fəaliyyətinin yaratdığı təhlükə ilə bağlı ciddi narahatlıq ifadə edir.

FATF 2011-ci ildən bəri dəfələrlə bütün ölkələri BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq hədəfli maliyyə sanksiyalarını qətiyyətlə tətbiq etməyə və KXDR-dən qaynaqlanan ƏL/TM/KQSYM risklərindən maliyyə sistemlərini qorumaq üçün aşağıdakı əks-tədbirləri tətbiq etməyə çağırır:

- KXDR bankları ilə müxbir hesab münasibətlərinin dayandırılması;
- Ölkələrində KXDR banklarının filial və nümayəndəliklərinin bağlanması;
- KXDR-ə aid şəxslərlə biznes münasibətlərinin və maliyyə əməliyyatlarının məhdudlaşdırılması.

Bu çağırışlara baxmayaraq, FATF 2024-cü ilin fevral Bəyanatında qeyd etdiyi kimi, KXDR beynəlxalq maliyyə sistemi ilə əlaqələrini artırmışdır ki, bu da yayılmanın maliyyələşdirilməsi (YM) risklərini yüksəldir. Bu, KXDR-ə qarşı tətbiq edilən əks-tədbirlərin gücləndirilməsini və yenilənmiş şəkildə icrasını tələb edir. BMT Təhlükəsizlik Şurasının 2270 saylı qətnaməsində qeyd edildiyi kimi, KXDR tez-tez sanksiyalardan yayınmaq məqsədilə ön şirkətlər, ofşor şirkətlər, birgə müəssisələr və mürəkkəb, qeyri-şəffaf mülkiyyət strukturlarından istifadə edir. Buna görə də FATF üzvlərini və bütün ölkələri KXDR-ə münasibətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq etməyə və onun adından həyata keçirilən əməliyyatlara nəzarəti artırmağa çağırır.

Bundan əlavə, FATF ölkələri KXDR-in maliyyə sisteminə artan əlaqəsi fonunda yayılmanın maliyyələşdirilməsi risklərini adekvat şəkildə qiymətləndirməyə və nəzərə almağa çağırır. Xüsusilə növbəti qiymətləndirmə raundu çərçivəsində ölkələr Tövsiyə 1 və Birbaşa Nəticə 11-ə uyğun olaraq KQSYM risklərini lazımi qaydada qiymətləndirməlidir. Bununla yanaşı, KXDR-lə bağlı KQSYM risklərinin qiymətləndirilməsini dəstəkləmək üçün etibarlı və mötəbər məlumat əldə etmək imkanları BMT-nin 1718 saylı Komitəsinin Ekspertlər Panelinin mandatının ləğv edilməsi ilə məhdudlaşmışdır. Bu səbəbdən, FATF KXDR-ə qarşı hədəfli maliyyə sanksiyalarına uyğunluq tədbirlərini və əks-tədbirlərin icrasını izləməyə davam edəcəkdir.

***İran***

FATF İranın ƏL/TMM (cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə) sistemindəki çatışmazlıqları aradan qaldırmaq məqsədilə təşkilatla yenidən əməkdaşlığa başlamasını təsdiq edir. 2016-cı ilin iyununda İran bu çatışmazlıqları aradan qaldırmaq üçün yüksək səviyyəli siyasi öhdəlik götürərək fəaliyyət planı təqdim etmiş, lakin həmin planın müddəti 2018-ci ilin yanvarında başa çatmışdır. 2019-cu ilin oktyabrında İranın fəaliyyət planı üzrə irəliləyiş əldə etməməsi səbəbindən FATF üzv dövlətləri və bütün yurisdiksiyaları aşağıdakı tədbirləri görməyə çağırmışdır:

- İranda fəaliyyət göstərən bank filialları və törəmə maliyyə qurumları üzərində nəzarət yoxlamalarını gücləndirmək;
- Maliyyə əməliyyatlarına dair müvafiq hesabat mexanizmlərini təkmilləşdirmək və ya sistemli hesabat təqdim edilməsini təmin etmək;
- İranda yerləşən filial və törəmə müəssisələri olan maliyyə qrupları üçün xarici audit tələblərini sərtləşdirmək.

2020-ci ilin fevralından etibarən isə, İranın fəaliyyət planını tam şəkildə icra etməməsi fonunda FATF üzv dövlətlərə və bütün yurisdiksiyalara 19-cu Tövsiyəyə uyğun olaraq effektiv əks-tədbirlərin tətbiq edilməsini tələb etmişdir.

2025-ci ilin sentyabr ayında İran Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyasını (Palermo Konvensiyası) ratifikasiya etməsi ilə bağlı FATF-ə yenilənmiş məlumat təqdim etmişdir. FATF İranın təqdimatını və fəallığını nəzərə alsa da, hazırda belə hesab edir ki, İranın Palermo Konvensiyasına dair irəli sürdüyü qeyd-şərtlər həddindən artıq genişdir və ölkənin konvensiya üzrə daxili icra mexanizmləri FATF standartlarına uyğun gəlmir. Bundan əlavə, FATF qeyd edir ki, İran 2016-cı ildən bəri fəaliyyət planının böyük hissəsini yerinə yetirməmişdir.

İranın nüvə silahlarının yayılmamasına dair öhdəliklərini yerinə yetirməməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrini nəzərə alaraq, FATF bütün yurisdiksiyalara İran mənşəli yayılma maliyyələşdirilməsi risklərini aradan qaldırmaq üçün FATF standartları çərçivəsindəki öhdəliklərini xatırladır.

Bununla yanaşı, İran mənşəli terrorçuluğun və nüvə silahlarının yayılmasının maliyyələşdirilməsi ilə bağlı davam edən təhdidlər, eləcə də İranın fəaliyyət planının hələ də tam başa çatmaması səbəbindən FATF üzv dövlətlərə və bütün yurisdiksiyalara effektiv əks-tədbirlərin tətbiqini bir daha tövsiyə edir və onları aşağıdakı tədbirləri görməyə çağırır:

- Məsələdə İrandan olan maliyyə institutlarının törəmə müəssisələrinin, filiallarının və ya

nümayəndəliklərinin yaradılmasının rədd edilməsi və ya həmin maliyyə qurumunun kifayət qədər ƏL/TMM sisteminə malik olmayan bir ölkədən olmasının nəzərə alınması;
– Maliyyə qurumlarına həmin ölkədə filial və ya nümayəndəlik açmağın qadağan edilməsi və ya belə bir filial və ya nümayəndəliyin yetərli ƏL/TMM sisteminə malik olmayan bir ölkədə yerləşəcəyinin nəzərə alınması.

İran fəaliyyət planını tam şəkildə yerinə yetirənədək, FATF-ın "Əks-tədbirlərə çağırışa məruz qalan yüksək riskli yurisdiksiyalar" siyahısında qalacaq. FATF daha əvvəl bildirdiyi kimi, əgər İran Palermo Konvensiyasını və Terrorçuluğun Maliyyələşdirilməsinə dair Konvensiyanı FATF standartlarına uyğun şəkildə ratifikasiya və icra edərsə, təşkilat növbəti addımlar barədə, o cümlədən əks-tədbirlərin dayandırılıb-dayandırılmaması ilə bağlı qərar qəbul edəcək. Əks halda, İranın fəaliyyət planı üzrə irəliləyiş nümayiş etdirmədiyi təqdirdə, FATF əlavə addımlar atmağı nəzərdən keçirə bilər.

FATF İranı fəaliyyət planı üzrə təcili və əlavə irəliləyişlər əldə etmək üçün təşkilatla əməkdaşlığı gücləndirməyə ciddi şəkildə təşviq edir. Bu çərçivədə İranın aşağıdakı istiqamətlər üzrə tam və səmərəli tədbirlər görməsi tələb olunur:

Terrorçuluğun maliyyələşdirilməsini kifayət qədər cinayət məsuliyyətinə cəlb edən qanunvericiliyin qəbul edilməsi, o cümlədən "xarici işğalı, müstəmləkəçiliyi və irqi ayrı-seçkiliyi aradan qaldırmağa çalışan" qruplara tətbiq olunan istisnanın aradan qaldırılması;

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun şəkildə terrorçulara məxsus aktivlərin müəyyənləşdirilməsi və dondurulmasının təmin edilməsi;

Müştəri uyğunluğu tədbirləri mexanizminin yetərli və icraolunan səviyyədə qurulması;

Hakimiyyət orqanlarının lisenziyasız pul və dəyər köçürmə xidmətləri göstərən qurumları necə müəyyənləşdirdiyini və sanksiya tətbiq etdiyini aydın şəkildə nümayiş etdirməsi;

Terrorçuluğun Maliyyələşdirilməsinə dair Konvensiyanın FATF standartlarına uyğun şəkildə ratifikasiya və icrasının təmin olunması, həmçinin Palermo Konvensiyasının ratifikasiya və icrasının da FATF standartlarına uyğun həyata keçirilməsi və qarşılıqlı hüquqi yardımın təmin edilməsi imkanlarının aydınlaşdırılması;

Maliyyə institutlarının pul köçürmələrində göndərən və alıcı barədə tam məlumatların daxil edildiyini və təsdiq olunduğunu yoxlamasının təmin edilməsi.

**FATF üzvlərini və digər ölkələri aşağıdakı bu yurisdiksiyadan yaranan risklərə uyğun şəkildə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməyə çağırır.**

***Myanma***

2020-ci ilin fevral ayında Myanma strateji çatışmazlıqlarını aradan qaldırmağı öhdəsinə götürdü. Myanmanın fəaliyyət planının müddəti 2021-ci ilin sentyabr ayında başa çatıb.
2022-ci ilin oktyabr ayında, fəaliyyət planının müddətindən bir il keçməsinə baxmayaraq, irəliləyişin davam etməməsi və fəaliyyət planındakı əksər məsələlərin hələ də həll edilməməsi səbəbindən, FATF prosedurlarına uyğun olaraq əlavə tədbirlərin görülməsinin vacib olduğuna qərar verdi və üzvlərini və digər yurisdiksiyaları Myanma ilə əlaqəli yaranan riskə nisbətən gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməyə çağırdı. FATF,

gücləndirilmiş müştəri uyğunluğu çərçivəsində maliyyə institutlarının biznes əlaqələrini izləmək dərəcəsini və xarakterini artırmalarını tələb edir ki, bu da həmin əməliyyatların və ya fəaliyyətlərin qeyri-adi və ya şübhəli olub-olmamasını müəyyən etməyə imkan versin. Əgər 2025-ci ilin oktyabr ayına qədər irəliləyiş əldə edilməzsə, FATF əks-tədbirlərin tətbiq olunmasını nəzərdən keçirəcəkdir.

Ümumi irəliləyişin yavaş davam etməsinə baxmayaraq, Myanma son beş ildə kütləvi qırğın silahlarının yayılması ilə bağlı hədəfli maliyyə sanksiyaları ilə əlaqədar texniki uyğunluq çatışmazlıqlarını həll etməklə fəaliyyət planındakı bir maddə üzrə irəliləyiş əldə etmişdir.

Myanma bu çatışmazlıqları aradan qaldırmaq üçün öz fəaliyyət planını həyata keçirmək üzərində işləməyə davam etməlidir, o cümlədən: (1) hüquq-mühafizə orqanlarının araşdırmalarında maliyyə kəşfiyyatının artırılmasını və maliyyə monitorinqi orqanının əməliyyat təhlilinin və yayımlanmasının artırılmasını göstərmək; (2) cinayət yolu ilə əldə

edilmiş əmlakın leqallaşdırılması risklərinə uyğun olaraq araşdırılmasını/prosesi aparılmasını təmin etmək; (3) beynəlxalq əməkdaşlıqla millətlərarası cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarının araşdırılmasını göstərmək; (4) cinayət nəticəsində əldə edilmiş gəlirlərin, alətlərinin və ya müvafiq dəyərdə əmlakın dondurulması, müsadirə edilməsi və ya müsadirəsinin artırılmasını göstərmək; və (5) müsadirə edilmiş əmlakları qorumaq və onun dəyərini qorumaq.

Gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq edərkən, ölkələr humanitar yardım, qanuni qeyri-hökumət təşkilatlarının fəaliyyəti və pul köçürmələri axınının pozulmamasını və təşviq edilməməsini təmin etməlidirlər. Xüsusilə Myanmada zəlzələdən zərər çəkmiş əhaliyə yardım səyləri ilə bağlı olaraq, FATF öz Tövsiyələrinin tətbiqinin qeyri-kommersiya təşkilatlarına (QKT-lərə) mənfi və qeyri-mütənasib təsir göstərməməsinin, eləcə də vətəndaş cəmiyyətinin fəaliyyəti və humanitar yardımın göstərilməsi prosesinə əsassız maneə yaratmamasının vacibliyini vurğulayır. FATF, həmçinin Myanmanın ƏL/TMM fəaliyyətlərinin qanuni maliyyə axınlarına lazımsız yoxlama tətbiq edib-etmədiyini izləməyə davam edəcəkdir.
Myanma tam fəaliyyət planını yerinə yetirənə qədər tədbir görülməsi tələb olunan ölkələrin siyahısında qalacaqdır.